■ Şirinxanım Şadiman

## Ömür Oğruları

Bitməyir, uzanır hər gün savaşlar,
Hər gün qan uydurur şeytani-başlar,
Titrəyir yer üzü, laxlayır daşlar,
Tətikdən çəkilmir bir an əlləri,
Ömür oğruları, can qatilləri.

Artır gündən-günə qorxunc silahlar,
Ərşə bülənd olur naleyi-ahlar,
Ağrıdan qıvrılır açan sabahlar,
Kəsilir yarıda ömrün illəri,
Ömür oğruları, can qatilləri.

Qızışır günbəgün müharibələr,
Yazıq anaları ağrıya bələr,
Bəs adəm toplumu nə vaxt haqq bilər?!
Axıdır gözlərdən acı selləri,
Ömür oğruları, can qatilləri.

Adam da adamı öldürərmi heç?
İlahi yanında bunun adı suç,
Yazıq cavanların ömrü olur puç,
Əsir kürəmizdə savaş yelləri,
Ömür oğruları, can qatilləri.

Nə vaxt dərk edərsiz haqdan böyük yox,
Günah daşımaqdan ağırca yük yox,
Rəvac verən başdan yıxıq-sökük yox,
Bəsdir boyadınız qana yerləri,
Ömür oğruları, can qatilləri.

Sizi doğan ana qana eşq etmiş,
İblis qanunuyla gizli məşq etmiş,
Dünyanı özünə yaxşı köşk etmiş,
Batırdız qırğına min bir elləri,
Ömür oğruları, can qatilləri.

Şadiman dözməyir qanlı savaşa,
Ana gözlərində sel olan yaşa,
Hər gün rəvac verdiz canda təlaşa,
Haqqın düsturunu vuran yox başa,
Hələ də cavabsız qalıb hələri,